# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası”nın təsdiq edilməsi haqqında**

“İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanununun tətbiqi və “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli 1895 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 16 may 2023-cü il

№ 158

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 16 may
tarixli 158 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası" (bundan sonra – Qayda) "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinin üçüncü cümləsinə əsasən hazırlanmışdır və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun (bundan sonra – İşçi Qrup) tərkibini, təşkili və fəaliyyəti qaydasını müəyyən edir.

1.2. İşçi Qrup İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator (bundan sonra – Milli Koordinator) yanında ictimai əsaslarla fəaliyyət göstərir.

1.3. Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı (bundan sonra – Milli Fəaliyyət Planı) iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi İşçi Qrup vasitəsilə həyata keçirilir.

## 2. İşçi Qrupun tərkibi

2.1. İşçi Qrupun tərkibi Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş icraçı orqanların (tövsiyə edilən qurumların) nümayəndələrindən ibarət olur.

2.2. İşçi Qrupun tərkibinə insan alverinə qarşı mübarizə sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil edilə bilər.

## 3. İşçi Qrupun təşkili

3.1. İşçi Qrupun fərdi tərkibi bu Qaydanın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş icraçı orqanların (tövsiyə edilən

qurumların) və qeyri-hökumət təşkilatlarının təklifləri əsasında Milli Koordinator tərəfindən təsdiq edilir.

3.2. İşçi Qrupa Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi rəhbərlik edir.

3.3. İşçi Qrupun iclasları Milli Koordinator ilə razılaşdırılmaqla, İşçi Qrupun rəhbəri tərəfindən rübdə bir dəfədən az olmayaraq çağırılır.

3.4. İşçi Qrupun iclaslarının gündəliyi Milli Koordinator ilə razılaşdırılmaqla, İşçi Qrupun rəhbəri tərəfindən müəyyən edilir.

3.5. İşçi Qrupun iclaslarında onun üzvlərinin azı üçdə ikisi iştirak etməlidir.

3.6. İşçi Qrupun iclaslarında hazırlanan təkliflər sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, İşçi Qrupun rəhbərinin səsi həlledici hesab edilir.

3.7. İşçi Qrupun iclasları İşçi Qrupun rəhbərinin imzaladığı protokolla rəsmiləşdirilir.

## 4. İşçi Qrupun fəaliyyəti

4.1. İşçi Qrupun fəaliyyəti Milli Fəaliyyət Planı iştirakçılarının qarşılıqlı əməkdaşlığının vahid sisteminin yaradılmasından və bu qurumlar arasında məlumat mübadiləsinin təmin edilməsindən ibarətdir. Bununla əlaqədar İşçi Qrup aşağıdakı funksiyaları yerinə yetirir:

4.1.1. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətlərini əlaqələndirir;

4.1.2. Milli Fəaliyyət Planının icrası zamanı qarşıya çıxan problemlərin həlli üçün müvafiq təkliflər hazırlayır;

4.1.3. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş icraçı orqanlar (tövsiyə edilən qurumlar) arasında operativ qaydada məlumat və qarşılıqlı informasiya mübadiləsini təmin edir;

4.1.4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş icraçı orqanlar (tövsiyə edilən qurumlar) arasında təcrübə mübadiləsini təmin edir;

4.1.5. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə əlaqədar dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əməkdaşlığının inkişaf etdirilməsi ilə bağlı tədbirlər görür.

4.2. İşçi Qrupun fəaliyyətinin təşkilati təminatı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.